ədalət.- 2021.- 6 mart.- S.8.

***Səhər ƏHMƏD***



***Özün donundan gözəl,***
***Donun özündən, ay qız.***
***Bəs niyə kədər yağır***
***Qara gözündən, ay qız?***

***Yoxsa zalım atan var,***
***Yoxsa sevib atan var,***
***Bəlkə xəstə yatan var,***
***Sənin üzündən, ay qız?***

***Bu nə dondu, geymisən,***
***Nə boynunu əymisən.***
***Bilirəm, gileylisən***
***Alın yazından, ay qız.***

***Özün-özünə yüksən,***
***İçini mənə tök sən.***
***Qorxma, bir az böyüksən***
***Mənim qızımdan, ay qız.***

**** * ****

***Bilirdim, bu ömür adam eyləməz***
***Səntək ağıllını, məntək dəlini.***
***Fələkdən yarımaq bizlik deyilmiş,***
***Mən yığım gözümü, sən çək əlini.***

***Mövzular köhnəlib, çözələnir lap,***
***Zaman adamlarla məzələnir lap,***
***Mənə cavabların təzələrin tap,***
***Al mənə sozlərin ən gözəlini.***

***Susdunmu, nəğmənmi bitdi, əzizim,***
***Bir nağıl yox imiş ömürdən uzun.***
***Bu həyat-anamız deyilmiş bizim,***
***Nə sən oğlusanmış, nə mən gəlini.***

*********

***Hamı özün haqlı sanır,***
***Haqq isə kimsəsizdi.***
***Haqsızların ordusu var,***
***Haqlısa kimsəsizdi.***

***Birinə bir dost qəhətdi,***
***Birinə bir sevgili.***
***Bəlkə elə bu gen dünya***
***Kimsəsizlər evidi?***

***Elə mən də tək-tənhayam,***
***bu canımda - kimsəsiz.***
***Gedənim də kimsəsizdi,***
***Qalanın da kimsəsiz.***

***Günahkaram gedənin də,***
***Qalanın da yanında.***
***Darıxıram anamın da,***
***Balamın da yanında.***